*Azərbaycan Universiteti Elmi Şurasının*
***20.02.2025-ci il tarixli,***
***06 saylı protokolu ilə təsdiq edilmişdir.***

# "Azərbaycan Universitetində elmi-pedaqoji fəaliyyətə görə professor-müəllim heyətinin əmək haqqının differensiallaşdırılması" sisteminin tətbiqi
# QAYDALARI

**Hazırladı: Differensial əmək haqqı üzrə İşçi Qrup**

**Təsdiq edirəm: _____________ Rektor S.N.Əliyeva**

**Razılaşdırılıb: ______________ Baş hüquqşünas N.P.Mehdiyev**

**Bakı – 2025**

**"Azərbaycan Universitetində elmi-pedaqoji fəaliyyətə görə professor-müəllim heyətinin əmək haqqının differensiallaşdırılması" sisteminin tətbiqi**
**QAYDALARI**

## 1. Ümumi müddəalar

Bu Qaydalar "Azərbaycan Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyətində (bundan sonra – "***AU***" və ya "***Universitet***") professor-müəllim heyətinin əmək haqqının differensiallaşdırılması sisteminin müəyyən olunması və tətbiqini nəzərdə tutan sənəddir.

Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Universitetin daxili keyfiyyət təminatı siyasətinə, Strateji İnkişaf Planına, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin və digər əlaqədar qanunvericilik aktlarının tələblərinə uyğun hazırlanmışdır.

Əmək haqqının differensiallaşdırılması sisteminin tətbiqinin əsas hədəfini Universitetin tam ştat və yarımştat qaydada (əvəzçiliklə daxil olmaqla) fəaliyyət göstərən professor-müəllim heyətinin əməyinin fərqli xüsusiyyətləri, metodikası və nəticələrini nəzərə almaqla, onların fəaliyyət və peşəkarlıq göstəricilərinin mütəmadi olaraq artmasının stimullaşdırılması təşkil edir və Universitetin beynəlxalq reytinqinin yüksəldilməsi, yerinə yetirilən elmi və elmi metodoloji tədqiqatların səviyyəsinin artırılması, professor-müəllim heyəti arasında sağlam iş və rəqabət mühitinin yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır. Beynəlxalq indeksləmə bazalarında elmi fəaliyyətinə görə fərqlənən və saathesabı (işəmuzd) qaydada dərs deyən professor-müəllim heyətinin fəaliyyəti fərdi qaydada qiymətləndirilə bilər.

## 2. Əmək haqqının differensiallaşdırılması sisteminin tətbiqi dövrü

**2.1.** Əmək haqqının differensiallaşdırılması sistemi bitmiş təqvim ilinin nəticələri nəzərə alınmaqla yeni tədris ilinin başlanğıcında professor-müəllim heyətinin əmək haqqına edilən əlavələr formasında tətbiq edilir.

**2.2.** Hər təqvim ilinin bitməsindən sonra professor-müəllim heyətinin elmi, elmi-metodoloji və son 2 semestr üçün olan pedaqoji fəaliyyəti Elm şöbəsi və Keyfiyyət Təminatı şöbəsi tərəfindən qiymətləndirilir, qiymətləndirmə nəticələri yeni tədris ilinin başlanmasınadək Rektorluğa təqdim edilir.

**2.3.** Hər tədris ilinin əvvəlində diferensial əmək haqqı sisteminə daxil edilən əməkdaşların siyahısı Elmi işlər üzrə Prorektorun təqdimatı əsasında İnsan resursları şöbəsinin hazırladığı əmr üzrə təsdiqlənir.

## 3. Əmək haqqının differensiallaşdırılması sisteminin tətbiqi meyarları və prinsipləri

3.1. Əmək haqqının differensiallaşdırılması sistemi ədalətlilik, şəffaflıq, hesabatlılıq və bitərəflik prinsipləri əsasında tətbiq edilir.

3.2. Əmək haqqının differensiallaşdırılması sisteminin tətbiqi meyarları pedaqoji fəaliyyətin qiymətləndirilməsi və elmi-metodoloji fəaliyyətin qiymətləndirilməsi üzrə 2 qrupdan ibarətdir.

3.3. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi meyarları aşağıdakılardır:

3.4. Son 2 semestr üzrə tədris prosesinin, təcrübənin monitorinqi (monitorinq meyarları üzrə);

3.4.1. AU-da iş stajı;

3.4.2. Sorğular (tələbə məmnunluğu indikatorları üzrə).

*(Qiymətləndirmə meyarları Əlavə 1)*

3.5. Elmi-metodoloji fəaliyyətin qiymətləndirilməsi meyarları aşağıdakılardır:

3.5.1. Monoqrafiya;

3.5.2. Məqalə (indekslənən jurnallarda);
3.5.3. Məqalə (indekslənməyən jurnallarda (yerli və ya xarici);
3.5.4. Konfransda iştirak (tezis) (indekslənən);
3.5.5. Konfransda iştirak (indekslənməyən - yerli və ya xarici);
3.5.6. Dərs vəsaiti, metodik vəsaitlər;
3.5.7. Elmi tədqiqat Qrantları;
*(Qiymətləndirmə meyarları Əlavə 2)*

3.6. Əməkdaşların əmək haqlarının hesablanması toplanmış reytinq ballarının nəticələrinə görə A, B, C olmaqla 3 (üç) qrupa bölünməklə yerinə yetirilir.

3.7. Differensial qaydada əmək haqları hesablanan əməkdaşların sayı və toplanmış ballara uyğun qruplar, həmçinin əmək haqqına ediləcək əlavələrin məbləğləri hər ilin nəticələrinə görə Elmi işlər üzrə prorektorun təqdimatı əsasında Elmi Şuranın qərarı ilə təsdiq edilir.

3.8. Əmək haqqının differensiallaşdırılması sistemi pedaqoji fəaliyyət üzrə monitorinq nəticələri ən azı qənaətbəxş olaraq qiymətləndirilən professor-müəllim heyəti üçün tətbiq edilir. *(Qiymətləndirmə meyarları Əlavə 3)*

3.9. A və B qrupuna daxil edilmək üçün əməkdaşların topladığı ballardan əlavə, "Web of Science" və ya "Scopus" bazasında indekslənən jurnalda çap olunmuş ən azı 1 (bir) məqaləsinin olması tələb olunur.

3.10. A qrupuna daxil edilmək üçün əməkdaşların topladığı ballardan əlavə, pedaqoji fəaliyyətin qiymətləndirilməsi meyarları üzrə maksimum 165 baldan ən azı 100 balın toplanması tələb olunur.

3.11. Məqalə, monoqrafiya, dərslik və dərs vəsaitlərinin qiymətləndirilməsi üçün müəlliflərdən ən azı birinin iş yeri olaraq Azərbaycan Universitetinin göstərilməsi tələb olunur.

3.12. Çoxmüəllifli məqalələrə, monoqrafiya, dərslik və dərs vəsaitlərinə verilən bal Azərbaycan Universitetinin əməkdaşı olan müəlliflər arasında bərabər bölünür.

## 4. Hesabatlılıq

4.1. Professor-müəllim heyəti arasında sağlam iş və ədalətli rəqabət mühitinin təmin edilməsi üçün differensial əmək haqqı qiymətləndirilməsinin nəticələri Universitetin e-universitet platformasında açıqlanır.

## 5. Yekun müddəalar

5.1. Bu Qaydalar Universitetin Elmi Şurasının qərarı ilə təsdiq edilir və təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və tətbiq edilir.

5.2. Bu Qaydalar hər tədris ilinin sonunda yenidən baxılmaqla, zərurət yarandıqda dəyişdirilə və ya təkmilləşdirilə bilər.

5.3. Gələcəkdə hər hansı formada bu Qaydaların müddəaları qanunvericilik və ya AU-nun Nizamnaməsi ilə ziddiyyət təşkil edərsə, qanunvericilik və ya AU-nun Nizamnaməsi əsas olaraq tətbiq edilir.

5.4. Hər hansı səbəbə görə bu Qaydaların istənilən şərti öz hüquqi qüvvəsini itirsə və ya etibarsız hesab olunsa, bu Qaydaların başqa şərtlərinə təsir etmir.

**ƏLAVƏ 1**

**Pedaqoji fəaliyyətin qiymətləndirilməsi meyarları**

| **Meyar** | **Semestr boyu tədris prosesinin, təcrübənin monitorinqi (monitorinq meyarları üzrə)** | | | **Azərbaycan Universitetində iş stajı** | | | **Sorğular (tələbə məmnunluğu indikatorları üzrə)** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox yaxşı | Yaxşı | Qənaətbəxş | 0-3 il | 3-5 il | 5 ildən çox | Çox yaxşı | Yaxşı | Qənaətbəxş |
| **Bal** | 100 | 70 | 50 | 15 | 30 | 50 | 15 | 10 | 5 |

**ƏLAVƏ 2**

**Elmi-metodoloji fəaliyyətin qiymətləndirilməsi meyarları**

<table>
<tr><th rowspan="3">Meyar</th><th colspan="2">Monoqrafiya</th><th colspan="4">Məqalə</th><th colspan="2">Konfransda iştirak (tezis)</th><th rowspan="3">Dərs vəsaiti, dərslik</th><th rowspan="3">Elmi tədqiqat qrantları</th></tr>
<tr><td rowspan="2">Nüfuzlu[1]</td><td rowspan="2">Digər</td><td colspan="3">İndekslənən jurnallarda</td><td rowspan="2">İndekslənməyən jurnallarda[5] (yerli və ya xarici)</td><td rowspan="2">İndekslənən[6]</td><td rowspan="2">Digər (yerli və xarici)</td></tr>
<tr><td>A[2]</td><td>B[3]</td><td>C[4]</td></tr>
<tr><td>Bal</td><td>200</td><td>50</td><td>200</td><td>100</td><td>80</td><td>25</td><td>30</td><td>15</td><td>50</td><td>50</td></tr>
</table>

[1]Elsevier, Springer, Wiley, Taylor & Francis nəşriyyatları
[2]Q1 kvartildə olan jurnallarda (Web of Science və ya Scopus bazası üzrə)
[3]Q2 Q3 kvartildə olan jurnallarda (Web of Science və ya Scopus bazası üzrə)
[4]Q4 kvartildə olan jurnallarda (Web of Science və ya Scopus bazası üzrə)
[5]Yerli jurnallar (Ali Attestasiya Komisiyasının siyahısına daxil olan jurnallarda)
[6]Web of Science və ya Scopus bazası üzrə

**ƏLAVƏ 3**

## Tədris ili müddətində AU-nun akademik heyətinin pedaqoji fəaliyyətinin monitorinq qiymətləndirmə meyarları

| Təhsil proqramına əsasən fənn üzrə nəzərdə tutulmuş fənn təlim nəticələrinin əldə edilməsi məqsədilə dərs üzrə təlim nəticələrini sillabusda düzgün göstərir; Tələbəni dərsə aid lazımi materiallarla təmin edir. | İmtahan suallarını fənn üzrə FTN-lərin qiymətlən dirməsinə uyğun hazırlayır | İmtahan və sememstr ərzində qiymətləndirməni tələb olunan standart və meyarlara əsasən icra edir | Bütün tələbələri dərsdə iştiraka cəlb edir: Müxtəlif imkan və texnikalardan (əl işarəsi, sualın qoyuluşu və auditoriyanın idarəedilməsi) istifadə etməklə tələbələri müzakirəyə cəlb edir. | Məzmunu izah edir: Müxtəlif metodlardan istifadə edərək dərs üzrə nəzərdə tutulmuş təlim nəticəsinin əldə edilməsinə nail olur. | Vaxt bölgüsü: Dərsdənkənar məsələlərə minimum, dərsə maksimum vaxt ayırır | Nizam-intizam: Doğru davranış formasını təmin edir, müsbət davranışları dəstəkləyir, mənfi davranışların qarşısını alır | Öyrənmə mühiti: tələbələrlə əlaqə qurur; öyrənmə üçün xoş, təhlükəsiz, nizamlı və əlverişli mühit yaradaraq tələbədə mövzuya maraq oyadır; Müəllimin nitqi aydın, axıcı və səlisdir | AU-nun tədris keyfiyyətinin artırılmasına yönəlmiş təlim modullarından müvafiq sertifikatlar əldə edib; | Dərsin təlim nəticəsinə uyğun dərsin planını və xulasəsini tərtib edir və tələbələri dərsdən öncə təmin edir | **Yekun bal** | **QEYD LƏR** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

| |
|---|
| 1) 1 və 2-ci meyarlar dərsdən öncə qiymətləndirilir. |
| 2) 3-cü meyar TŞ-nin semestr və sessiya qiymətləndirmələrinə dair hesabat/protokollar əsasında qiymətləndirilir |
| 3) 4-8, 10-ci meyarlar dərs zamanı qiymətləndirilir |
| 4) 9-cu meyar TTM-nin protokolu əsasında qiymətləndirilir |

| Çox yaxşı (10-9 bal) | Yaxşı (8-7 bal) | Qənaətbəxş (6 bal) | Qeyri-qənaətbəxş (5-0) bal |
|---|---|---|---|